**UOT 94(479.24)** **XATİRƏ QƏHRƏMANOVA**

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*"Azərbaycanın Beynəlxalq Əlaqələr Tarixi" şöbəsinin böyük elmi işçisi*
**xatira.qahramanova.71@mail.ru**

# HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ DİASPORA AMİLİ: UKRAYNADA AZƏRBAYCAN DİASPORUNUN TƏŞKİLATLANMASI

DOI: https://doi.org/10.36719/2708-065X/111/211-217

*1991-ci il hər iki ölkə ikinci dövlət müstəqilliklərini bərpa etdikdən sonra dövlətlərarası əlaqələr yenə də inkişaf etməyə başladı. Artıq respublikalar müstəqil olaraq öz siyasətlərini yürütməyə başladılar. Azərbaycan Respublikasının şərəfli oğlu Ulu Öndər ikinci dəfə respublikanın rəhbəri olaraq, yenicə müstəqil olmuş bir dövlətin siyasi, ədəbi, mədəni əlaqələrini yenidən qurmalı və dövlətin inkişaf strategiyasını dəyişməli idi. Bütün bunlarla yanaşı Heydər Əliyev Diaspora siyasətində inkişaf strategiyasının bir bəndi olaraq hərəkətləndirdi. Hər səfərində Azərbaycandan kənarda yaşayan soydaşlarımızla görüşər, onlara öz tövsiyələrini bildirərdi. Heydər Əliyevin Ukraynaya səfərləri də yadda qalan və tarix yaszan görüşləri hər zaman diaspora nümayəndələri üçün bir strategiya olmuşdur. Məqalədə bütün bu məsələlərə aydınlıq gətirilmiş, və tarixi illər əsasında görülən işlər araşdırılaraq təhlil edilmişdir.*

*Açar sözlər:* region, Ukrayna, azərbaycanlılar, Rusiya-Ukrayna, Cənubi Qafqaz, diaspor.

***Giriş***. Əsrlər boyu inkişaf etmiş azərbaycançılıq ideologiyası Azərbaycan xalqının milli ideyası olaraq tarixi yol keçmişdir. Bu tarixi missiyanı müxtəlif dövrlərdə müxtəlif istiqamətlərdə Azərbaycanın fədakar şəxsiyyətləri, qəhrəman oğulları yaşadaraq təbliğ etmişdirlər. Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasını formalaşdıraraq çağdaş dövlətçiliyimizə tətbiq etdi. Bu ideologiyanın təbliğində ən əsas amillərdən biri də diaspora amilidir. Yaşadığı ölkədə mənsub olduğu xalqın dilini, mədəniyyətini, tarixini, musiqisini yaşatmaq və təbliğ etmək özü böyük ideologiyadır. Bu ideologiyanın daşıyıcısı isə etnik toplum olan diasporlardır.

Ulu Öndər azərbaycançılıq ideologiyasının əsasını bütün dünyada olan azərbaycanlıların birləşməsində və güclü olmasında görürdü. Elə ən önəmli və dəyərli qərarlarından biri də 31 dekabr Dünya Azərbaycanlıların Həmrəylik Günü kimi qeyd edilməsidir. Bu qərar tam fərqli idi. 31 dekabrı bütün dünya ölkələri yeni təqvim ilinin gəlişi münasibəti ilə qeyd edirlər [1, s.73]. Dünya azərbaycanlıları isə bu günü həmrəylik günü olaraq qeyd edirlər. Məhz dünyaya səpələnmiş soydaşlarımızın təşkilatlanması diasporun inkişafında yeni mərhələnin başlanması Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə başladı.

1991-ci ildə öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası artıq müstəqil olaraq öz siyasətini yürütməyə və iqtisadi-siyasi əlaqələri müstəqil beynəlxalq hüquq normalarına uyğun olaraq inkişaf etdirməli idi. Uzun illərdən sonra Azərbaycan yenidən müstəqil dövlət olaraq öz inkişaf strategiyasını qurdu. Ukrayna 1991-ci il avqustun 24-də müstəqilliyini bərpa etdi. Azərbaycan isə 18 oktyabr 1991-ci ildə. Hər iki ölkənin taleyində ikinci müstəqillik tarixi yazıldı [5].

Taleyin iradəsi ilə, öz dövlətçiliklərinin çoxəsrlik ənənələrini davam etdirərək, suveren hüququndan istifadə edərək 1995-ci ildə Azərbaycan Respublikası, 1996-cı ildə isə Ukrayna dövləti Əsas qanunlarını – Konstitusiyalarını qəbul etmişlər ki, bu da demokratik quruluş üçün möhkəm zəmin yaradır, eyni zamanda dövlətin dünyəvi inkişaf yolunu müəyyən edirdi. Bu isə öz qanunvericiliklərini fəal şəkildə təqdim etməyə səbəb oldu. Ölkələrin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı müdafiəsi məsələləri xüsusilə aktual məsələlərdən biridir. Ukrayna Qarabağın statusu ilə bağlı Azərbaycanın mövqeyini hər zaman dəstəkləyib, Azərbaycan da Ukraynanın ərazi bütövlüyü məsələsində birmənalı mövqe tutur. Ukrayna və Azərbaycan hər zaman müxtəlif sahələrdə sabitlik nümayiş etdirərək iqtisadi, siyasi inkişafı, humanitar əlaqələrin genişləndirilməsi, iki ölkə xalqları arasında qarşılıqlı anlaşmanın dərinləşdirilməsi məsələləri üzrə çox böyük layihələrə imza atmışlar. Bu

münasibətlərin inkişafının pik nöqtəsi Heydər Əliyevin məqsədli siyasəti ilə davam etdirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Ukrayna xalqına həmişə xüsusi hərarət və diqqətlə yanaşmışdır. Tarixə nəzər salaq. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu illərdən, Ukraynanın mədəni inkişafı üçün çox mühüm qərarların verilməsinə nail olmuşdur. Çoxları bilir ki, məhz Heydər Əliyevin sayəsində Kiyev Milli Filarmoniyasının bərpasına vəsait ayrılıb. Onun bilavasitə köməyi ilə zavod tikilib istifadəyə verilmişdir. "Obolon" uşaq fabriki onun təşəbbüsü ilə tikilmişdir. Dövlət başçılarının dostluğu və siyasi iradəsi sayəsində Azərbaycanla Ukrayna arasında siyasi mexanizm yaradılıb. Hər iki ölkənin vətəndaşlarının təmasları səmimi dostluq çərçivəsində qurulmuşdur. Dövlət, hökumət başçıları səviyyəsində müntəzəm görüşlər, iki ölkənin xarici siyasət idarələrinin keçirdiyi görüş və tədbirlər Ukrayna ilə əlaqələrin inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdir. Bir sözlə, Ukrayna-Azərbaycan tərəfdaşlıq münasibətlərinin dərin kökləri vardır. Bu köklərin əsasında tarixi yaddaşı əks etdirən 1918-ci ildə Cümhuriyyət yaradıcıları ilə Ukrayna Xalq Respublikası təsisçilərinin münasibətlərini də qeyd etmək lazımdır. Az zaman ərzində qurulan və bolşeviklər tərəfindən dağıdılan Azərbaycan Demokratik Respublikası və Ukrayna xalq Respublikası öz diplomatik əlaqələrini yüksək formada qurmuşdular. Bu quruluş müstəqil dövlətlərin gələcək inkişafının təməli idi. Ukraynada Azərbaycan Komissarlığının yaradılması müstəqil Azərbaycan Demokratik Respublikasının siyasətinin istiqamətlərini göstərirdi. Düzdür Komissarlığın fəaliyyəti uzun çəkmədi. İttifaq dağıldıqdan sonra, yenə də hər iki dövlətin rəsmiləri bu tarixi ənənəni davam etdirdilər. Ukraynada fəaliyyət göstərən səfirliyin yaradılması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə baş tutdu. 1996-cı ildə Ukraynanın Azərbaycanda, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirlikləri fəaliyyətə başladı [15].

Ukrayna və Azərbaycan bir çox beynəlxalq təşkilatlarda, bir-birini uğurla dəstəkləyir. Bunlara misal olaraq BMT, ATƏT, Avropa Şurasında qarşılıqlı əməkdaşlığı göstərmək olar. Çünki, qarşılıqlı etimad olmadan Ukrayna-Azərbaycan münasibətləri heç vaxt dolğun olmayacaq. Ukrayna və Azərbaycan əlaqələrinin zəngin tarixi var. Bu ölkələr ikinci dəfə müstəqillik əldə etdikdən sonra münasibətlər həmişə xüsusi və mühüm yer alıb [2, s.186].

Məhz Heydər Əliyevin tapşırığı və xüsusi diqqəti sayəsində Ukraynada Azərbaycan diasporu təşkilatlanmış və inkişaf yolu keçmişdir. 1997-ci ildə Ukraynaya rəsmi səfər edən Prezident Heydər Əliyev burada yaşayan azərbaycanlılarla görüşdə qeyd etmişdir: *"Harada yaşamasından asılı olmayaraq heç bir azərbaycanlı öz Vətənini, ulu babalarını, dilini unutmamalıdır. Harada yaşayırsansa yaşa, yaxşı da, pis də yaşasan, gərək ürəyin öz vətəninlə, torpağınla döyünsün. Gərək nəbzin vətənin nəbzi ilə vursun. Bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır"* [9, s.325].

Görüş zamanı Ulu Öndər soydaşlarımıza öz tövsiyələrini verərək, bir olmağı, güclü olmağı tövsiyə etmişdir. Pərakəndə şəklində yox bir mərkəz yaradaraq orda birləşməyi əsaslandıraraq güc birliyi olaraq fəaliyyət göstərmələrini qeyd etmişdir. Heydər Əliyevin tövsiyələrindən biri də Ukraynanın Ali rəsmi dairələrində yer almaq və vəzifə tutmaq idi. Ulu Öndər digər xalqların nümayəndələrinin Ukraynanın Ali Radasında yerləşdiklərini və bizim orda neçə nümayəndəmizin olduğunu soruşaraq öz dəyərli qeydlərini ukraynalı soydaşlarımıza bildirdi.

Bu görüşün çox böyük nəticəsi 1999-cu ildə özünü göstərdi. 1999-cu ildə Ulu Öndərin Ukraynaya yeni rəsmi səfəri zamanı artıq çox dəyişikliklərin olduğu görsənirdi. Ukraynada Azərbaycanı təmsil edən bir mərkəz yaradılmışdır. Bu Ukrayna Azərbaycanlıları Konqresi idi. Konqres 1999-cu il 21 mart tarixində təsis edilmişdir. Konqres 1990-cı il 20 yanvar hadisələrinin təsirindən yaradılan Nizami Gəncəvi adına Mərkəzin üzərində təsis edilmişdir. Bu Mərkəz Ukraynanın ən aktiv fəaliyyət göstərən Cəmiyyətlərindən biri idi. Ukrayna Azərbaycanlıları Konqresinin rəhbəri olaraq Tələt Əliyev təyin edilmişdir. Tələt Əliyev Ukraynanın ən fəal azərbaycanlı gənclərindən biri idi. Əvvəlcə Mərkəzin 17, daha sonra isə 27 vilayətində bölmələri təsis edildi. Hər bir vilayətdə açılan bölmə isə Mərkəz tərəfindən idarə edilirdi. Konqres qısa zaman ərzində soydaşlarımız arasında birliyin yaranmasına müvəffəq oldu [10, s.46].

Bildiyimiz kimi artıq tarixə qovuşan Azərbaycanın ən ağrılı problemi sayılan işğal altında olan ərazilərimizin azad edilməsində, dünya ictimaiyyətinə sözümüzün çatdırılmasında, haqlı olduğumuzu bəyan etməkdə güclü və sarsılmaz diasporumuzun mövqeyinə çox ehtiyacımız vardı. Biz

dünya xalqlarının təcrübəsindən artıq diasporların nə dərəcədə güc sahibi olduqlarını bilirik. Dünya xalqlarının diasporları siyahısında ən güclü söz sahibi olan yəhudi, yunan və erməni diasporları xalqın mənafeyi naminə birləşərək güc birliyinə çevrilmişlər. Xüsusilə də erməni diasporunun qondarmaları, tarixi həqiqətləri gizlədərək öz yalanlarına don geydirərək, dünyaya bəyan etməsi Azərbaycana qarşı təbliğat idi. Ata yurdumuz Qarabağın düşmən tapdağı altında illərlə əzilməsinə göz yuman yüksək güc sahibi olan dövlətlər haqqı dandılar. Heç bir ədalətli addım atmadılar. Belə bir zamanda Ulu Öndər Azərbaycan xalqının da səsini xarici ölkələrdə yayacaq güclü diaspora malik olmasının vacib olduğunu bilirdi. Və bu onun xarici siyasətində əsas prioritetlərdən biri idi. Bütün bunlar Heydər Əliyevin hər bir səfərində vaxt ayıraraq soydaşlarımızla görüşməsi, onların problemləri ilə maraqlanması, onlara doğru yolun göstərilməsi və hər zaman vətənləri Azərbaycan dövləti tərəfindən dəstəyin olduğunu bildirməsi məhz bugünkü güclü diasporumuzun olmasından xəbər verirdi. Bu böyük siyasətin nəticəsi idi.

Ulu öndər Heydər Əliyev "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 2001-ci il 23 may tarixli Sərəncamı ilə milli diaspor quruculuğunun təməlini qoydu [3]. Tarixi əhəmiyyətə malik bu Sərəncama əsasən həmin il noyabr ayının 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının ilk Qurultayı keçirildi. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirildi. Məhz bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşərək, təşkilatlanması baxımından dönüş nöqtəsi oldu. Milli diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Dünya Azərbaycanlılarının I Qurultayında 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə, 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Onların arasında ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Kanada, Almaniya Fransa, Gürcüstan, Avstriya, Rumıniya, İsveçrə, Avstraliya, Özbəkistan, Ukrayna, Estoniya, Latviya, Moldova, Qazaxıstan, Danimarka, Hollandiya, Finlandiya, Belarus, İsrail və sair dövlətlərin təmsilçiləri var idi. Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına ciddi təsir göstərdi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "*Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"* kəlamı ideologiyamızın şüarına çevrildi [11, s.296].

Daha sonra 2002-ci il 5 iyul tarixli Fərmanla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirdi. Bütün bunlar Azərbaycan Diasporunun institutlaşması üçün yol xəritəsi idi. Bu xəritənin əsasını, Azərbaycanın inkişafı üçün Ulu Öndər Heydər Əliyev qoydu. Yuxarıda qeyd etdiyimiz kimi, Ulu öndər Heydər Əliyevin diaspor quruculuğunda xidmətlərindən biri də xaricə səfərləri zamanı həmin ölkələrdə yaşayan həmvətənlərimizlə görüşlər keçirməsi, onların problem və qayğıları ilə yaxından maraqlanması, tövsiyələrini verməsi olmuşdur. Bu görüşlər və müzakirələr diasporumuzun güclənməsi, əsas fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm rol oynayır.

Heydər Əliyev Ukraynada Soydaşlarımızla görüşü zamanı qeyd etmişdir: *–Bilirəm ki, xarici ölkədə yaşamaq asan deyil. Hər bir insan doğulur, böyüyür, öz kökü, qohumu, doğma torpağı var. Hər bir insan bu yerlərə bağlıdır. Ancaq oxşar hisslər yüz il əvvəl də var idi. Ötən əsrdə dünya o qədər dəyişib ki, insanların böyük miqrasiyası var. Bu, təkcə bizim regionda, keçmiş sovet məkanında deyil, dünyanın hər yerində baş verir. Bu gün dünyada gedən prosesləri heç kim idarə edə bilmir. Bunlar obyektiv proseslərdir. Biz azərbaycanlılar bu və ya digər şəkildə bu proseslərdə iştirak edirik. Məsələn, mən hesab edirəm ki, öz torpağını tərk edərək dünyanın başqa ölkələrində yaşayan, orada iş tapan, öz həyatını quran, cəmiyyətdə müəyyən yer tutan azərbaycanlılarımız üçün belə bir miqrasiya prosesinin yaranması – bütün bu faktlar milli maraqlarımıza xidmət edir. Ona görə də mən köhnə fikirləri rəhbər tutaraq yad ölkədə yaşamağın nə qədər çətin olduğundan danışdım. Bu gün çətin heç nə yoxdur. İnsan rahat olduğu yerdə yaşayır. Daha yaxşı yaşadığı yerə köçür. Ailəsi üçün daha yaxşı şəraiti olan yerdə yaşayır. Halbuki insan öz kökünü, torpağını, vətənini, dilini heç vaxt unutmamalıdır. O, dinini, milli adət-ənənələrini unutmamalıdır. Bunu unutmamaq*

*bir şeydir – bunu xatırlayıram, yaddaşımda yaşayır, bəli, bu, mənim millətimin bir xüsusiyyətidir, – onu qorumaq, inkişaf etdirmək tamam başqadır* [5].

Bu sözlərin hər birində dərin məna var. Sanki yeni qurulacaq bir ölkənin konstitusiyası kimi. Ölkənin inkişafı üçün yol xəritəsi olaraq istiqamətləri dəqiq bildirmişdir. Onun müdrikliyi Azərbaycan Diasporunun vətən üçün və xalq üçün birləşməsinə səbəb oldu.

Heydər Əliyevin inkişaf strategiyası Ukrayna və Azərbaycan arasında əlaqələrin inkişafına da çox böyük və müsbət təsir bağışladı. Ukrayna-Azərbaycan əməkdaşlığının əhəmiyyətli potensialı var. İnkişaf üçün hər iki tərəfin gözəl imkanları var. İkitərəfli qarşılıqlı fəaliyyətin bütün sahələrində, o cümlədən siyasi, parlamentlərarası, iqtisadi, enerji, nəqliyyat, hərbi-texniki, aerokosmik, humanitar sahələrdə bu imkanlar özünü büruzə verir. Qeyd etmək istərdim ki, təhsil sahəsinin tərkib hissəsi olan əməkdaşlıq xüsusi diqqətə layiqdir. Bu sahə fəal şəkildə inkişaf edir. İki ölkənin ali təhsil müəssisələri arasında əlaqələr, universitetlər arasında bağlanmış müqavilələrə əsaslanır. Təhsil sahəsi hər iki ölkənin gəncləri arasında humanitar körpünün mühüm tərkib hissəsidir. Heydər Əliyevin yardımı, qayğısı sayəsində Ukraynanın mədəniyyət müəssisələri Kiyev Milli Filarmoniyası bu gün çox gözəl görünür. Onun köməyi ilə Obolon zavodu da tikilib istifadəyə verilmişdir. Onun təşəbbüsü ilə uşaq qidası fabriki tikildi. Heydər Əliyev öz köməyini hər zaman dost Ukraynaya göstərib. L.Kuçma Heydər Əliyevin dostu olaraq xatirələrini belə qeyd etmişdir: "*Mən dəfələrlə əmin olmuşam ki, Azərbaycan xalqı Heydər Əliyevi ürəkdən sevirdi – Xalq Atası, müdrik və uzaqgörən siyasətçi kimi. Bilirəm ki, bu sevgi sönməzdir... O, hər zaman Ukraynanın sadiq dostu olmuşdur* [15].

Heydər Əliyevin diaspor sahəsindəki apardığı inkişaf strategiyası diaspor nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Onlar ata qayğısını hiss etdilər. Heydər Əliyevin xatirəsi həm ölkədə, həm də xaricdə yaşayan azərbaycanlıların qəlbindən silinmir. Məhz o, Azərbaycan xalqını ayağa qaldıraraq, ideal və mənəviyyat zirvəsini ucaldaraq, bununla da Azərbaycançılıq simasını bütün dövrlər üçün milli ideala çevirdi. Heydər Əliyev həmişə milli mənəvi-mədəni dəyərlərin qorunub saxlanması uğrunda mübarizə aparmış, eyni zamanda onların ümumbəşəri dəyərlərlə inteqrasiya yolu ilə zənginləşməsi üçün əlindən gələni etmişdir.

Ukraynada Azərbaycan diasporunun tanınmış nümayəndəsi Ağsaqqallar Şurasının sədri professor Arif Quliyev öz xatirələrində qeyd edir: – *Qürur hissi olaraq qeyd edirəm ki, mən də bu böyük insanla (1976-cı ildən 2003-cü ilədək) dəfələrlə şəxsən görüşmüşəm, hətta onun qarşısında dəfələrlə çıxış etmişəm. 1980-cı ildə mənim namizədliyimi təsdiqləyərək Bakı Partiya Məktəbində oxumağa yaşıl işıq yandıran Heydər Əliyev oldu. Onunla Yaltada görüşdükdən sonra diasporun fəal üzvü, "Xalq qəzeti"nin jurnalisti və Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçilik Akademiyasının tələbəsi kimi ona Ukrayna jurnallarında "Millət Atası, nə üçün müdrik Azərbaycan xalqı Heydər Əliyevdən xahiş etdi ki, məsuliyyəti öz üzərinə götürüb Respublikanı xilas etsin", "Heydər Əliyevin portreti üçün ştrixlər". Bununla əlaqədar bir fakt daha maraqlıdır. 2000-ci ilin sentyabrında Ukrayna Prezidenti yanında Dövlət idarəçilik Akademiyasında təhsil alarkən bir professorla şəxsi tanışlıq zamanı bildirdi ki, "Azərbaycan geri qalmış ölkədir..., mədəniyyət yaxşı deyil... demokratiya yoxdur... Sumqayıt hadisəsində ermənilərə qarşı vəhşilik-terrorçuluq hərəkətləri törədilib... və s." Soruşanda ki, "Siz Azərbaycanda olmusunuz?"– dedi: "yox". Dedi: Arqumentin var? – Dedim: "Bəli". Növbəti mühazirəsi zamanı Heydər Əliyevin son 7 illik fəaliyyəti zamanı faktlarla təsdiqlənən Azərbaycan reallıqlarını əks etdirən məqaləmi həmin professora təqdim etdim. Növbəti həftədə mühazirəsindən sonra mənə yaxınlaşaraq bildirdi ki, "Siz məni Millilik baxımından tərbiyə etdiniz, Sizin materialı vermişəm "Politika və Siyasət" jurnalına çap olunacaq. Get Redaktorla görüş, əlavələrin varsa qeyd et...". Beləliklə həmin jurnalda mənim "Millət Atası, nə üçün müdrik Azərbaycan xalqı Heydər Əliyevdən xahiş etdi ki, məsuliyyəti öz üzərinə götürüb Respublikanı xilas etsin" başlığı ilə 2000-ci ilin sentyabrında məqaləm "Politika və Siyasət" jurnalında çap olundu. Bu məqalədə əks olunan həqiqi faktlar Azərbaycanımızın bəzi düşmənləri tərəfindən ünvanımıza reklam edilən — xoşa gəlməyən sözlər Məqalənin başlığında Redaksiya adından jurnalda qeyri həqiqiliyi real faktlarla bizim dəyərlərimizə düzgün qiymətləndirildi. Onu Bakıya göndərdim. Bir həftə sonra bu məqalə bütün Azərbaycan qəzetlərində tərcümə olunub çap olundu.* [13, s.45-54].

Ulu öndər qardaş Ukraynaya səfəri zamanı Ukraynada yaşayan azyaşlı azərbaycanlılara öz töhfəsini-məsləhətini demişdi. Ulu öndər Vətəndən kənarda yaşayan soydaşlarımız üçün Azərbaycan dili kursları açılmasını qaçılmaz hesab etmiş, dilimizin-dinimizin, milli-mənəvi dəyərlərimizin, poeziyamızın yaşaması üçün gənc nəslə öyrədilməsini tövsiyə etmişdi. Ulu Öndərimizin bu tövsiyəsi əsnasında Kiyev şəhərində 5 orta ümumtəhsil məktəblərində (37, 137, 188, 247, 291 saylı məktəblərdə) «Azərbaycan mədəniyyət tarixi» adlı dərnəklər təşkil edildi. Bu dərnəklərin köməyi ilə həm Azərbaycanın gələcəyi olan azyaşlı Azərbaycanlılarımız xalqımızın milli-mənəvi dəyərləri olan dilimizi, dinimizi, poeziyamızı aşılamaqla birlikdə, həm də yaşadığımız ölkədə «Azərbaycan mədəniyyətini, musiqisini, poeziyasını, milli-mənəvi dəyərlərini, mətbəximizin təbliğinə nail oluruq. Göstərilən məktəblərdəki dərnəklərimizin köməyi ilə biz Azərbaycanımızın korifey sənətkarlarının yubileylərini, xalqımızın qədim adət-ənənələri, bayramları təkcə məktəblərdə deyil ötən əsrdən dahi şairimiz Səməd Vurğunun adını daşıyan kitabxanada, şəhər radiosunda, Kiyevdə ən müqəddəs yer sayılan "Peçersi Lavra" muzeyində Ukrayna Yazıçıları İttifaqının (evində) Azərbaycan xalqını azyaşlı məktəbli soydaşlarımız layiqincə təmsil edirlər [14, s.89]. Belə ki, öncül şagirdlərimizdən Yəhya Quliyev, Alsu Paşayeva, Fidan Qasımova, ... hər həftənin 2-ci və 4-cü günləri Azərbaycan xalq nağıllarını və Azərbaycan yazıçılarının yazdığı kiçik həcmli Ukrayna dilinə tərcümə olunmuş mənzum hekayələrini səsləndirirdilər (müharibədən öncə) və bu dinləyicilər tərəfindən çox yüksək səviyyədə qarşılanırdı, xalqımızın ünvanına xoş sözlər yazırdılar. Biz məktəblərdə və kitabxanalarda Azərbaycan poeziyası günləri keçirməyə nail oluruq. Bu tədbirlərdə dahi Nizami Gəncəvinin, İmaməddin Nəsiminin, Füzulinin, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Mirzə Ələkbər Sabirin, Mirzə Fətəli Axundzadənin, Məmməd Arazın və başqalarının yaradıcılıq yolunu, əsərlərini azyaşlı soydaşlarımız Azərbaycanın mədəniyyətini bütün dünyaya təbliğ etməyə çalışırlar1. Qədim və müqəddəs adət-ənənələrlə bəzənmiş "Novruz şənliyimizi" Kiyevdə yerləşən "Uşaq evində" keçirərək valideynlərini itirən uşaqlara həm sevinc, həm də Novruz hədiyyələr bağışlayaraq xalqımızın gözəl adətlərini nümayiş etdiririk. Bütün bu səhnələri görən hər kəs bir söz deyir "Azərbaycan xalqı nə qədər müdrik xalqdır!". Bu sözləri eşitmək insana qürur verir, desək azdır!.. [13, s.22].

***Nəticə***. Ukrayna xalqına dərin hörmət azərbaycanlılar arasında böyükdür. Azərbaycanda yaşayan ukraynalılar yerli əhali ilə rahat, əmin-amanlıq, mehriban münasibətlər çərçivəsində davam etdirirlər. 90-cı illərin əvvəllərində "Azərbaycanda Taras Şevçenko adına Ukrayna İcması" yaradılmışdır. 2001-ci ildən Bakıda Ukrayna bazar günü məktəbi fəaliyyət göstərir, Sumqayıt şəhərində Lesya Ukrainka adına Ukrayna Mədəniyyəti Mərkəzi fəaliyyət göstərir, Ukraynanın 2000-ci illərində, icması "Azərbaycan-Ukrayna İqtisadi Münasibətlərin Təşviqi İctimai Birliyi" təşkilatını yaratmışdır. Slavyan Universitetində Ukrayna Evi fəaliyyət göstərir. Bu kimi Ukrayna diasporunun nümayəndələrini bir araya gətirən dərnək və birliklərin adlarını qeyd etmək olar. Onlar doğma vətənimizdə özlərini Azərbaycanlı olaraq hiss edir, yaşayır və çalışırlar.

Qeyd etmək lazımdır ki, bu gün iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi davam edir. Artıq Ulu Öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev bu ənənəni davam etdirərək yüksək səviyyədə bütün sahələrdə böyük addımlar ataraq müstəqil Azərbaycanın dünyanın ən qabaqcıl ölkələrindən birinə çevrilməsinə nail oldu. Diasporunun inkişaf strategiyasına İlham Əliyev xüsusi diqqət göstərdi. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra, onun atdığı ilk addımlardan biri diaspor məsələləri ilə bağlı oldu. O, daim diaspor quruculuğuna diqqət göstərərək, xarici ölkələrdə yaşayan həmvətənlərimizin təşkilatlanması, onların vahid ideya ətrafında birləşdirilməsi siyasətini çox uğurla davam etdirdi. Cənab İlham Əliyevin əmri ilə doğma Vətəndə baş tutan Dünya Azərbaycanlılarının II, III, IV və nəhayət ki, V - Zəfər Qurultayı bütün dünyaya səpələnmiş soydaşlarımıza səs saldı. Onları Vətənə dəvət edərək, prioritet layihələri və məqsədli inkişaf yolunu birlikdə müzakirə edilməsinə imkan yaratdı [6, s.191; 11, s.296; 7, s.110; 4, s.322; 8, s.46].

MDB məkanında Azərbaycanın əsas strateji müttəfiqlərindən biri Ukraynadır. Azərbaycanla Ukrayna arasında nə dəniz, nə də quru sərhədlərin olmamasına baxmayaraq, iki ölkə arasındakı strateji müttəfiqlik münasibətləri durmadan möhkəmlənir və genişlənir. Ukrayna ilə Azərbaycan arasında diplomatik münasibətlər 31 yanvar 1992-ci ildə qurulub. Hər iki dövlət bir-birinin müstə-

qilliyini qısa müddətdə tanısa da, diplomatik nümayəndəliklərin açılması bir qədər sonraya təsadüf edir. Ukraynanın Azərbaycandakı səfirliyi 1996-cı il mayın 5-də fəaliyyətə başlayıb. Azərbaycanın Ukraynadakı səfirliyi isə 1997-ci il martın 17-də açılıb. Ölkələr arasındakı münasibətlər sürətlə inkişaf edib. Bu inkişaf mexanizmi davam edir. Həm rəsmi səviyyədə dövlətlərarası münasibətlər, həm də hər iki xalqın diaspor nümayəndələri arasında mədəni, ədəbi əlaqələr daim dinamik inkişaf edir.

ƏDƏBIYYAT

1. Arzumanlı V. Azərbaycan Diasporu. – Bakı: 2001, – 189 s.
2. Azərbaycan diasporuna dövlət qayğısı. – Bakı: Çaşıoğlu, – 2006. – 301 s.
3. Azərbaycan Respublikasının Dövlət Arxivi, f. 3189, siyahı 4, sax. vahidi 415, vərəq 329.
4. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası: Azərbaycan diasporu. – Bakı: 2016. – 322 s.
5. Azərbaycan-Ukrayna dostluğu sarsılmazdır // Respublika – 2010, 29 oktyabr, s. 5.
6. Dünya Azərbaycanlılarının II qurultayı. – Bakı: Çaşıoğlu, – 2006. – 191 s.
7. Dünya Azərbaycanlılarının III qurultayı. – Bakı: 2012. – 110 s.
8. Dünya Azərbaycanlılarının V qurultayı (Zəfər qurultayı). – Bakı: 2022. – 46 s.
9. Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 1. – 1997. – 612 s.
10. Quliyeva Xatirə. Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. – Bakı: 2019, – 106 s.
11. Qurultaya hesabat. – Bakı: Adventa, – 2011. – 296 s.
12. Гулієв Аріф. Батько Нації або Чому азербайджанський народ звернувся з проханням до Гейдара Алієва взяти на себе відповідальність за порятунок республіки // Жур. «Політика і Культура». — Кіев. — 5–11 вересня 2000 р. — №32 (67)6. — С. 14–17.
13. Гулиев Ариф. Штрихи к портрету Гейдара Алиева. Впервые опубликовано в Киевском журнале «Президент». — Кіев. — 2001. — №6. — С. 45–54.
14. Гулиев Ариф. Гейдар Алиев: Я выполнил свой долг перед родиной. — Режим доступа: http://versii.com/news/347841/ [13.11.2025].
15. https://kiev.mfa.gov.az/az/content/3/ikiterefli-munasibetler. [13.11.2025].

**ХАТИРА ГАХРАМАНОВА**
*Старший научный сотрудник отдела*
*«Истории международных отношений Азербайджана»*
*Института истории и этнологии имени А.А. Бакиханова НАНА*

## ФАКТОР ДИАСПОРЫ В ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА: ОРГАНИЗАЦИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ НА УКРАИНЕ

После восстановления обеими странами своей второй государственной независимости в 1991 году межгосударственные связи вновь начали развиваться. Республики уже самостоятельно определяли и осуществляли собственную политику. Став во второй раз во главе Азербайджанской Республики, выдающийся сын народа, Общенациональный Лидер, был вынужден заново выстраивать политические, литературные и культурные связи недавно обретшего независимость государства, а также менять стратегию его развития. Наряду с этим Гейдар Алиев придал импульс развитию стратегии в сфере диаспорной политики, включив её в число приоритетных направлений. Во время каждой своей поездки он встречался с соотечественниками, проживающими за пределами Азербайджана, и делился с ними своими рекомендациями. Поездки Гейдара Алиева на Украину также сопровождались памятными и вошедшими в историю встречами, которые всегда служили стратегическим ориентиром для представителей диаспоры. В статье освещены все эти вопросы, а также проведён анализ выполненной работы на основе исторических фактов и событий.

*Ключевые слова:* регион, Украина, азербайджанцы, Россия–Украина, Южный Кавказ, диаспора.

**KHATIRE GAHRAMANOVA**
*Senior Researcher of the Department of "History of International Relations of Azerbaijan" of the Institute of History and Ethnology named after A.A. Bakikhanov of ANAS*

## THE ROLE OF DIASPORA IN THE POLITICS OF HEYDAR ALIYEV: ORGANIZATION OF THE AZERBAIJANI DIASPORA IN UKRAINE

After both countries restored their second independence in 1991, interstate relations began to develop again. The republics were now independently determining and implementing their own policies. Having become the head of the Republic of Azerbaijan for the second time, the outstanding son of the people, the National Leader, was forced to rebuild the political, literary, and cultural ties of the newly independent state, as well as to change its development strategy. At the same time, Heydar Aliyev gave impetus to the development of the diaspora policy, including it among the priority areas. During each of his visits, he met with compatriots living outside Azerbaijan and shared his recommendations with them. Heydar Aliyev's visits to Ukraine were also accompanied by memorable and historic meetings, which always served as a strategic guide for diaspora representatives. The article highlights all these issues and provides an analysis of the work carried out based on historical facts and events.

*Keywords:* region, Ukraine, Azerbaijanis, Russia-Ukraine, South Caucasus, diaspora.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 noyabr 2025-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.*
*Rəyçilər: t.ü.f.d. Xatirə Ağayeva, t.e.d. Sevinc Yusifzadə.*